# Tacikistan Prezidentinin səfəri münasibətlərimizin inkişafında mühüm rol oynayacaq

**"Azərbaycanın uğurlu xarici siyasətində Mərkəzi Asiya ölkələri, o cümlədən Tacikistanla münasibətlər xüsusi yer tutur. Xalqlarımızın əsrlərə söykənən tarixi, mədəni, dini bağlılığına əsaslanan bu münasibətlər son dövrlər ölkə başçılarının siyasi iradəsi ilə daha da genişlənib. Qlobal iqtisadi-siyasi proseslər yaxın tarixi keçmişi olan ölkələrdən daha sıx əməkdaşlıq tələb edir. Azərbaycanın xarici siyasətində bu amil özünü daha qabarıq göstərir. Son 2-3 il ərzində Azərbaycan və Mərkəzi Asiya ölkələrinin liderlərinin qarşılıqlı səfərləri münasibətlərimizin strateji xarakter almasını şərtləndirir. Bu səfərlər zamanı imzalanan müqavilələr ölkələrimiz arasında münasibətlərin qarşıdakı dövr üçün əsas istiqamətlərini səciyyələndirir. Azərbaycan-Tacikistan münasibətlərinin strateji səviyyəyə yüksəlməsində Prezident İlham Əliyevin və Emoməli Rəhmonun şəxsi dostluq münasibətləri mühüm rol oynayır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Ramiz Alıyev söyləyib.

O bildirib ki, Prezident İlham Əliyev Tacikistana indiyədək altı dəfə səfər edib. Ötən il Azərbaycan Prezidenti dost ölkəyə iki dəfə səfər edib. Dövlətimizin başçısının 2023-cü il aprelin 5-6-da Tacikistana dövlət səfəri və sentyabrın 14-də Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının Düşənbədə keçirilən iclasında Emoməli Rəhmonun dəvəti ilə yeganə fəxri qonaq qismində iştirak etməsi münasibətlərimizdəki bağların qırılmazlığının əyani sübutudur. Bundan başqa, Tacikistan Prezidenti Emoməli Rəhmon isə ötən il noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olub.

"Tacikistan Prezidenti Emoməli Rəhmonun budəfəki dövlət səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaq. İki ölkənin rəhbərlərinin iştirakı ilə keçirilən görüşlərdə sənaye kooperasiyasının, humanitar sahədə əməkdaşlıq üzrə iqtisadi xarakterli bir çox layihənin reallaşdırılmasına dair hökumət üzvlərinə konkret tapşırıqlar verilib. İlin sonunda Emoməli Şaripoviç yenidən ölkəmizə səfər edəcək və verilən tapşırıqların yerinə yetirilməsinin vəziyyəti müzakirə olunacaq. Tacikistan Prezidenti noyabrda keçiriləcək iqlim konfransında iştiraka dəvət edilib.

Bakıda keçirilən Azərbaycan-Tacikistan biznes-forumu iqtisadi-ticari əlaqələrin inkişaf potensialının yüksək olduğunu göstərdi. Forum çərçivəsində imzalanmış kommersiya müqavilələrinin və sazişlərin ümumi məbləği bütövlükdə 700 milyon ABŞ dollarından çox olub. Hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artırılmasına imkan verir. Bu ilin ilk dörd ayında iki ölkə arasındakı ticarət dövriyyəsi 78 faiz artıb. Tacikistan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizindən (Orta dəhliz) də fəal istifadə edir. Ölkə prezidentlərinin görüşündə Orta dəhlizi və onun bir hissəsi olan Trans-Xəzər Nəqliyyat Dəhlizini Tacikistandan yük göndərənlər üçün daha cəlbedici etmək məqsədilə logistika əlaqələrinə dair məsələlər ətraflı nəzərdən keçirilib. Artıq Azərbaycan öz ərazisində bütün iri nəqliyyat və logistika layihələrini praktiki olaraq başa çatdırıb və bu gün müxtəlif istiqamətlərdə - Şərqdən Qərbə və əks-istiqamətdə, Şimaldan Cənuba və əks-istiqamətdə böyük həcmdə yükləri qəbul etməyə hazırdır. Qarabağ Zəfərindən sonra Azərbaycanın bütün dünyada nüfuzu artmaqdadır. Orta dəhliz Şərqdən Qərbə yükdaşımalarında son dərəcə əhəmiyyətli yoldur və bu marşrutun ən vacib hissəsi Zəngəzur dəhlizi olacaq. Odur ki, Tacikistanın da bu marşruta qoşulması bizim ümumi gücümüzü artıracaqdır", - deyə politoloq vurğulayıb.

R.Alıyev qeyd edib ki, Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açacaq: "Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, əsas məsələ münasibətlərimizdəki səmimiyyət, Tacikistanla Azərbaycan arasındakı münasibətlərin dostluq, qardaşlıq xarakteridir. Əgər iki ölkənin əlaqələri dostluq, qardaşlıq münasibətlərinə söykənmir və sırf iqtisadi maraqlar üzərində qurulubsa, onun ömrü o qədər də uzun ola bilməz. Bu mənada Azərbaycan-Tacikistan münasibətləri bir çox ölkələr üçün nümunə olmalıdır".

Azərbaycan.- 2024.- 25 may, № 109.- S.5.